## Muzey xəbərləri

# Təşəkkür edirik

Bu günlərdə Tola kənd sakini Ehsan Kərimov muzeyimizə antik dövrə aid kiçik həcmli vaza bağışlayıb.

Ehsan Kərimov həyatyanı sahədə təsərrüfat işləri apararkən təsadüfi olaraq bu tarixi nümunəni tapıb. Gözəlliyi ilə göz oxşayan bu vaza qədim tariximizin orijinal nümunəsi olmaqla bərabər Albaniyada həmin dövrdə bacarıqlı sənətkarların yaşadığını bir daha sübut edir.

Qədim tariximizdən yadigar qalan bu sənət əsərini muzeyə bağışlamaqla bərabər, ulu keçmişimizə ehtiram əlaməti olaraq böyük bir işi həyata keçirən xeyirxah əməl sahibi, vətənpərvər insan Ehsan müəllimə muzey kollektivi adından təşəkkür edirik.

# Qızıl əllərin yadigarları

Rayon tarix-diyarşünaslıq muzeyində "Qızıl əllərin yadigarları" adlı sərgi təşkil edilmişdir. Sərgidə bütün növ əl işlərindən ibarət nümunələr nümayiş etdirilir.

Onların arasında pərdəbaşlıqları, süpürgəbaşlıqları, pul kisəsi, tənbəki kisəsi, müxtəlif tikmələr və s. çoxluq təşkil edir.

Müxtəlif materiallardan hazırlanan və bu gün əsil sənət nümunəsinə çevrilən nadir əl işlərini sərgiyə gələnlər böyük maraqla izləyirlər.

**İlhamə SEYİDOVA,**
**muzeyin işçisi.**

# Gəlin şəhərimizi təmiz saxlayaq

***Ətraf mühitin çirkləndirilməsi və zibillənməsi müasir dövrün ən aktual ekoloji problemlərindən biri hesab olunur. Təmizliyə riayət edilməməsi sanitar problemlərlə yanaşı flora və faunanın zərər çəkməsinə təsir göstərir.***

***Hər bir şəhərin, parkın, xiyabanın, yaşayış massivinin gözəl, cəlbedici olmasında ilk amil onun təmizliyidir.***

***Abad və səliqəli küçələri olan, gündən-günə abadlaşan Qəbələmizin təmizliyi də yerli sakinlərlə yanaşı bura gələn qonaqların diqqət mərkəzindədir.***

Ölkənin ikinci beynəlxalq turizm mərkəzi olan rayonumuzda ictimai yaşayış binalarının, iaşə və ticarət obyektlərinin, müəssisə və təşkilatların ərazilərinin, yol kənarlarının, meşələrin, tarixi yerlərin, çay və göl sahillərinin təmiz qalması vacib məqamdır.

Axı niyə sakini olduğumuza görə fəxr etdiyimiz şəhərimizin küçələrinə hər gün zibil atılır, ekoloji təmizliyi pozulur? Bu məişət tullantıları torpaqdan çıxmır, göydən yağmır axı. Deməli, zibilləyən də özümüzük, narazı qalan da. Məqsədimiz bu yazıda bütün şəhər sakinlərini günahlandırmaq deyil, küçələrimizi daha təmiz görmək istəyidir.

Şəhərin yenidən qurulan küçələrinə, xüsusilə üstü qapalı olan suötürücü kollektorların açıq hissələrinə sakinlər tərəfindən atılan məişət tullantıları, xəzəl və s. tıxaclar yaradır. Həmin su ötürücü xətlər tutulduğundan yağış suları daşaraq yolların hərəkət hissəsi ilə axır, yolları keçilməz edir və dağıdır.



Yaranan antisanitar vəziyyət isə heç də adamlara xoş görüntü, xoş təəssürat hissi bağışlamır. Eyni zamanda antisanitar vəziyyət müxtəlif infeksiya xəstəliklərinin yaranmasına səbəb olur ki, bundan heç kim, hətta zibili hara gəldi atanların özləri və ailə üzvləri də sığortalanmayıb.

Bəziləri isə məişət tullantılarını zibil qutularına deyil, maşınla hərəkətdə olarkən yaşayış məntəqələrinə gedən yolların kənarına atırlar.

Şəhəri, yolları çirkləndirənlər gün ərzində heç nə olmamış kimi həmin tullantıların üzərindən laqeydliklə keçib yollarına davam edirlər. Ancaq hər səhər onlar şirin yuxuda olanda yağışda, qarda, şaxtada küçələri minbir əziyyətlə təmizləyən insanları düşünmürlər.

Bu zəhmətsevər insanları doğmamız bilək. Gəlin şəhərimizi öz evimiz, avtomobilimiz, həyatımiz kimi təmiz və səliqəli saxlayaq. Axı təmizlik də imandandır!

**"Qəbələ"**

# Böyük maraqla qarşılanıb

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Açıq qapı" günü keçirilib. Tədbirin keçirilməsində məqsəd Qəbələ rayonunda yerləşən orta məktəb şagirdlərini və onların valideynlərini təhsil mərkəzi ilə tanış etmək, tədris olunan ixtisaslar və təlim prosesi barədə ictimaiyyəti məlumatlandırmaq, eləcə də peşə təhsilini təbliğ etməkdir.***




Peşə Təhsili üzrə Dövlət Agentliyinin peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq şöbəsi müdirinin müavini Nigar İsmayılzadə çıxış edərək peşə təhsilinə göstərilən qayğı, bu sahədə əldə olunan nailiyyətlər və qarşıda duran fəaliyyət barədə məlumat verib.

Tədbirin növbəti hissəsində tələbələrin tərəfdaş müəssisələrdə keçdikləri təlim prosesi, müəssisələrə təşkil olunan səfərlər haqqında məlumat verilib, qısa video-çarx və tələbələrin təlim prosesi zamanı çəkilmiş fotoşəkilləri nümayiş etdirilib.

Tədbirə qonaq kimi dəvət olunmuş ictimaiyyətlə əlaqələr və media üzrə tanınmış mütəxəssis və blogger Mehriban Həsənova peşənin - xobbinin biznesə çevrilməsi barədə uğur hekayəsini bölüşüb, peşə ixtisaslarına yiyələnməyin verdiyi üstünlüklərdən danışıb.

Mərkəzin qənnadçı - şirniyyatçı qrupunun məzunu Elman Seyidovun müşayiəti ilə orta məktəbin şagirdləri və mərkəzin məzunları üçün şirniyyatın bəzədilməsi üzrə masterklas təşkil olunub. Masterklas iştirakçılar tərəfindən böyük maraq və həvəslə qarşılanıb.

**Mabud ƏZİMOV,**
**mərkəzin müəllimi.**

# Məqsəd yaşıllıqların qorunmasıdır

"Alyans" Canlı Aləmin Mühafizəsi İctimai Birliyi Qəbələdə "Yaşıl Patrul" Ekoloji ictimai nəzarətin yaradılması və qərargahlarının təşkili" ümumrespublika marafonu layihəsi çərçivəsində növbəti maarifləndirici tədbir keçirib. Tədbirdə təhsil, səhiyyə, mədəniyyət işçiləri, gənclər, ictimaiyyət nümayəndələri, əlaqədar qurumların təmsilçiləri iştirak ediblər.

Mədəniyyət mərkəzində təşkil olunan maarifləndirici tədbirdə "Yaşıl Patrul" Ekoloji İctimai Nəzarətin əsas planlarından danışan natiqlər layihənin biomüxtəlifliyin təbii və antropogen (insan) amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorunması, bu sahədə qarşılıqlı əməkdaşlıq, hüquqi mühafizəni təmin edən əsasların müəyyənləşdirilməsi kimi məqsədlər olduğu diqqətə çatdırıblar.

Tədbirdə "Bağışlanmaz səhv" qısametrajlı kinofilm, "Heyvanlar bizə nə demək istəyir?" sosial sənədli film nümayiş etdirilib, ekoloji mövzuda mahnılar ifa olunub.

Sonda iştirakçılara flayer və bukletlər paylanıb, ekoloji sorğu keçirilib, suallar cavablandırılıb.

**"Qəbələ"**

# Mənzildə sağlam mühit yaratmaq vacibdir

***Mənzilinizdə sağlam mühit yaratmaq və lazımlı aeroionların miqdarını artırmaq üçün bitkilər yetişdirmək və onlara qulluq etmək vacibdir. Mütəxəssislər bitkiləri donor-enerji verən və ya vampir-enerji absorbsiya edən olmaqla iki hissəyə ayırırlar. Evlərdə hündürlüyü 50 santimetrdən çox olmamaq şərti ilə 5-6 bitkini becərmək kifayətdir. Bitkilər ekoloji cəhətdən sorucu nasos vəzifəsini yerinə yetirir, karbon qazını udur və havanı oksigen qazı ilə zənginləşdirirlər.***

Ən çox oksigen sintez edən bitki sansevieriyadır. Müxtəlif növlü fikuslar civə buxarının indikatoru hesab olunurlar. Belə ki, əgər evdə az miqdarda civə buxarı varsa, o zaman fikuslar məhv olur. Filodendron, aloe (əzvay) və s. bitkilər havanı toksiki maddələrdən təmizləyə, qəhvə ağacı isə çox yaxşı ozonlaşdıra bilər. Dərman bitkisi olan aloe mənzildə olan müxtəlif növlü orqanizmlərlə mübarizədə çox effektlidir.

Bitkilər xəstəlik törədən, mikrob və virusları məhv edən xassələrə malikdirlər. Fitonsidlər çox zərərli mikroorqanizmləri məhv edə bilirlər. Evin havasını bakteriya və viruslardan təmizləmək üçün xlorofitum bitkisinin saxlanılması tövsiyə olunur. Çünki onun 24 saat ərzində mənzildə olan patogen mikroorqanizmlərin 80 faizini öldürməsi təcrübələrlə sübut edilib. Araşdırmaların nəticəsinə görə, mərsin bitkisi isə həmin mikrobların yarısını öldürmək qabiliyyətinə malikdir. Bundan başqa, asparaqus, monstera, moloçay və krasula (pul ağacı) bitkiləri də mənzildə olan mikrob və virusları 2-3 dəfə azaldır. Bundan əlavə, ev bitkiləri arasında evkalipt, prutovid və qlobulis də çox faydalıdır.



Bəzi bitkilər sakitləşdirici xassəyə malik olduğundan onları yataq otağında saxlamaq məsləhət görülür. Melissa, monstera, pelarqoniya (ətirşah) və rozmarin bitkilərinin yataq otağında saxlanılması məqsədəuyğundur. Belə ki, yataq otağında saxlanılması tövsiyə edilən rozmarinin enerjisi yorğunluğu, qorxunu, həyəcanı və yuxusuzluğu aradan qaldırır.

Ev bitkilərindən olan geran donor bitkilərə aiddir. Əgər özünüzdə yorğunluq hiss edirsinizsə, o zaman həmin bitkinin yanında oturun. Onun güclü və sağlam enerjisi sizə kömək edəcək.

Fikus da evinizə müsbət enerji bəxş edə biləcək qabiliyyətə malikdir. Belə ki, onun sayəsində evlərdə kin, nəzər və mübahisənin olmadığı deyilir.

Kaktus zərərli elektromaqnit şüalarını neytrallaşdırmaqla neqativ aeroionların verilməsində iştirak edir. Ona görə də bu bitkini evlərdə və iş yerlərində kompüterlərin yanında saxlamaq məsləhət görülür.